

■ Sərvər KAMRANLI

## GƏL AĞLAYIM, DÜŞ GÖZÜMDƏN...

Yük olmusan, gözlərimə nə vaxtı...
Gəl ağlayım, düş gözümdən, a zalım!
Bir damcıya sığıb, doğul baxışdan,
Canım çıxsın yer üzündən, a zalım!

Tutub boğur gözlərimi varlığın,
Gücdən salıb dizlərimi varlığın,
Əsir alıb sözlərimi varlığın,
Adın çıxır hər sözümdən, a zalım!

İçimdəki yaşadığım ömürsən,
Niyə mənə "yaşatdığım" - demirsən,
Alovunam közümdəki kömürsən,
Usanmışam ta közümdən a zalım!

## BAKI, SEVGİLİMƏ YAXŞI BAXARSAN!

Ana ol, balanda sevgilim olsun,
Əzizlə, qoy  sevinc qəlbinə dolsun.
Küləyin saçına xəfifcə dalsın,
Sən də saçlarına örpək taxarsan,
Bakı, sevgilimə yaxşı baxarsan!

Darıxsa, yol çəkib gözləri dolsa,
Həsrətim gözündən gülüşü alsa.
Fikri xəyalımın izində qalsa,
Dost olub dərdinə şərik çıxarsan,
Bakı, sevgilimə yaxşı baxarsan!

Günəşin istisi yandırsa onu,
Geydirsin günəşə buludlar donu.
Görsən soyuq oldu, üşüyür canı,
Qəlbini qızdırıb, gün tək yaxarsan,
Bakı, sevgilimə yaxşı baxarsan!

## YUXUMA BİR GÖZƏL GİRƏNDƏN BƏRİ

Yaman uşaqlaşıb, tənbəlləşmişəm,
Ta heç kim tanımır bu gənc qoçağı.
Yuxuma bir gözəl girəndən bəri,
Yuxudan qalxıram günorta çağı.

Bu ömrün içində kaş neçə-neçə,
"Sabah " dediyimiz "yox"u da tapaq...
Bizim sevgimizi ölüm tapmaya,
Tapsa da, tapsa da yuxuda tapa.

## SƏNSİZLİK

Xəyalların qoluna girib,
uzaqlarda özünü axtarmaqdır
Sənsizlik.
Zamanından, məkanından asılı olmayaraq,
bəzən qollarını alnına yastıq edib
görüşmək eşqilə özünü yuxuya məhkum etmək,
Bəzən də gecələri yuxusuz açmaqdır
Sənsizlik...
Gündə geyilməkdən yamaq-yamaq olan yollarda
yolunu azmaqdır
Sənsizlik...
...Telefonun bir zənginə həsrət qalmaq,
Saatın əqrəbindən asılıb
ötənlərə nəzər salmaq,
səbəbsiz yerə gülüb,
səbəbsiz yerə ağlamaqdır
Sənsizlik.
Sənsizlik həm də
ələ qələm alıb
ağ vərəqlərə ləkə salaraq
günaha batmaqdır.
...Hə, bir də
Sənsizlik sənin yoxluğunda sənli olmaqdır,
sənlə olmaqdır.
Bax, budur sənsizlik...

## DAHA VARLIĞIN DA MƏNİ ÜŞÜDÜR

Daha varlığın da məni üşüdür,
Daha buz bağlayıb əlində əlim.
Bir vaxt danışardı baxışlarımız,
İndi o baxışlar laldı,  gözəlim.

Alma yanaqların niyə qızarmır,
Hanı gözlərində gizli baxışlar?
Deyəsən, yamanca peşman olmusan,
Gözündən boylanır sözlü baxışlar.

Yaman dəyişmisən yaman, a zalım,
Beləcə tanıya bilmirəm səni.
Nə ola, bu görüş sonuncu olsun
Özümdə qınaya bilmirəm səni.

## SƏNİN XƏTRİNƏ

Qızılgül, bənövşə məst etmir məni,
Oxşamır telinin gülüm, ətrinə.
Bilsəm ki, yuxuda görüşəcəyik,
Gündüz də yataram sənin xətrinə!

Bu sazaq adamlar, soyuq adamlar,
Bürüyüb yamanca yerdə hər yanı.
Sevib-sevilənlər yaxşı yanırlar,
Gəl sevək isinsin dünyanın canı...

## KÖHNƏLMƏK QORXUSU

Özümü yenicə dərk etməyə başlamışdım ki,
gəldin həyatıma...
Gəlşinlə çox şeyi öyrətdin mənə,
Gözlərimlə "gəzməyi" sən öyrətdin,
Elə yol çəkməyi də...
Həyatıma gəlməmişdən
Heç özümlə söhbət də etməzdim,
Görənlər dəli deyib mənə gülməzdilər də...
Heç onda dərdlərin yaxasından asılmamışdım,
Gözlərim "qəhrəman ana" da olmamışdı...
Onda hər şey başqaydı...
Bambaşqa...
Ömrümdə tək qış fəsli deyildi...
...Hə, gəl, bir az da uşaqlığımdan danışım sənə...
Hələ onda uşaq idim,
Qayğılardan kənar,
sakit,
gülərüz,
bir az da "toppuş" uşaq...
Hər kəs məni çox sevərmiş -
rəhmətlik nənəm deyəndə yadımda saxlamışdım...
Dünya boyda oyuncağın içində
mənim də oyuncaqlarım olub
başqa uşaqlar kimi...
Amma onlardan fərqli olaraq,
heç sevməzdim oyuncaqlarımı.
Atam mənə oyuncaq alan kimi
"içində, görəsən, nə var?"-
bəhanəsilə
tez sındırardım onları...
Mən o vaxtdan təzəlikləri sevməmişdim...
İndi düşündükcə, çox şeyi anlayıram.
Bizi bir-birimizə bağlayan
oxşar cəhətlərin nələr olduğunu...
Mən də sənin kimi təzəlikləri tez köhnəltmişəm,
tez atmışam.
Amma səndən fərqli olaraq,
cansızları.. .oyuncaqları...

## GÖZLƏRİM AYAQ AÇIB...

Ayaq açıb gözlərim,
düşüb sənin dalınca.
Göz yaşlarım adını,
axşam yazır balınca.

Həsrətindən ürəyim,
dönüb dərd otağına.
Kədər məni aparıb
salıb qəm yatağına.

Əzab yorğan əvəzi,
bürümüş məni boğur.
Günü gündən əzabım
yeni bir əzab doğur.

## DOĞULANDAN SONRA...

Əvvəl dörd əllə yapışarsan yerdən,
Sonra yavaş-yavaş böyüyərsən.
Tamahkar olarsan -
Təkcə yerlə gözün doymaz.
ayaq açarsan,
qalxarsan ayağa,
boylanarsan göylərə
Ayaqlarınla yerdən tutub,
əllərinlə göydən tutmaq istəyərsən
Eşqə düşərsən.
Gah yerdəkilərə sevdiyini deyərsən,
gah da ki, göydəkilərə
Tapdaladığın torpağı sevərsən,
dünyanın belində fırlanarsan bir oxun ətrafında.
Günəşə çatmaq üçün, hərəkətin sürətlənməsini istəyərsən,
Arzuların qanad açmaz.
Hərəkətin bərabərliyindən dəyişməz aradakı məsafələr,
Yorularsan.
Düşmək istəyərsən dünyanın belindən,
Hətta lağ edərsən dünyaya:
"Dünya, sanma fırladırsan hey məni,
Hünərin var dövr eyləmə, fırlanım!
Nəhayət bir gün gələr-
Gözləmədiyin anda,
hansısa bir varlıq alar səni dünyanın belindən.
Bir vaxtkı arzuların gerçək olar,
O zaman sevindiyindən bölünərsən iki yerə.
yerlər özünün olar, göylər ruhunun.

